# "Yaşıl enerji" növlərinin yaradılması və dünya bazarlarına nəqli Azərbaycanın prioritetidir



**Ölkənin enerji sektorunda 2024-cü ilin yanvar-noyabr ayları yeni nailiyyətlərlə yadda qaldı. Respublikamızda bu dövrdə 25932,5 milyon kVt/saat elektrik enerjisi istehsal edilib. Bu rəqəmlər Azərbaycanın dinamik inkişafının və enerji siyasətində innovativ yanaşmaların bariz nümunəsidir. İstehsal olunan elektrik enerjisinin əsas hissəsi İstilik Elektrik Stansiyaları (İES) tərəfindən təmin edilib - 22 351,9 milyon kVt/saat. Bununla yanaşı, Su Elektrik Stansiyaları (SES) 2 780,9 milyon kVt/saat, digər mənbələr isə 799,7 milyon kVt/saat elektrik enerjisi istehsal edib. 11 ay ərzində elektrik enerjisi istehsalı üzrə Külək Elektrik Stansiyaları - 48,6 milyon kVt/saat, Günəş Elektrik Stansiyaları - 540,1 milyon kVt/saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodu - 211 milyon kVt/saat enerji istehsal edib. Burada xüsusilə diqqətçəkən məqam isə Azərbaycanın bərpaolunan enerji mənbələrindəki inkişafıdır.**

Rəqəmlərdən də göründüyü kimi, respublikada enerji mənbələri üzrə "yaşıl enerji" istehsalı artıb. Bu dövrdə bərpaolunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisi ötən ilin müvafiq dövrünə nisbətən 80 faizdən çox artaraq 3 580,6 milyon kVt/saat təşkil edib.

Qeyd edək ki, "yaşıl enerji" növlərinin yaradılması və onun dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını məqsəd olaraq qarşıya qoyub.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi, ölkəmizin qlobal ekoloji gündəmə verdiyi böyük önəmin və liderlik mövqeyinin bir daha təzahürüdür. Bu təşəbbüs ekoloji sabitliyin təmin edilməsi, təmiz enerji mənbələrindən istifadənin artırılması və planetimizin gələcəyinə olan kollektiv məsuliyyətin vurğulanması baxımından tarixi bir addımdır. 2024-cü ildə Azərbaycan COP29 konfransına ev sahibliyi edərək ekoloji məsələlərə verdiyi önəmi bir daha təsdiqlədi və qlobal iqlim dəyişmələri ilə mübarizədəki liderlik mövqeyini gücləndirdi. Bu mötəbər tədbir Azərbaycanın qlobal ekoloji siyasətə verdiyi dəstəyin, həmçinin ətraf mühitin qorunmasına yönəlmiş konkret addımların bir hissəsidir.




Azərbaycanda "yaşıl enerji" siyasəti ölkənin enerji təhlükəsizliyini təmin etməklə yanaşı, ekoloji dayanıqlılığı və karbon emissiyalarının azaldılmasını hədəfləyən strateji bir istiqamət kimi formalaşıb. Bu siyasət Azərbaycanın zəngin bərpaolunan enerji potensialından səmərəli istifadə edərək, həm daxili enerji tələbatını ödəmək, həm də "yaşıl enerji" ixracatçısına çevrilmək məqsədi daşıyır. Prezident İlham Əliyev bu il noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimindəki çıxışında Azərbaycanın "yaşıl gündəliyi" haqqında danışarkən qeyd edib ki, ölkənin bərpaolunan enerjidə texniki potensialı quruda 135 giqavat, dənizdə isə 157 giqavat təşkil edir.

Azərbaycan "yaşıl enerji" sahəsində dünyanın tanınmış şirkətləri ilə əməkdaşlığa böyük önəm verir və bu sahədə bir sıra əhəmiyyətli layihələr həyata keçirilir. Rəsmi Bakı bu istiqamətdə həm texnoloji yenilikləri ölkəyə gətirmək, həm də öz potensialını dünyaya tanıtmaq məqsədilə beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirir və bir sıra ölkələrlə müqavilə imzalayır. BP (British Petroleum), "ACWA Power" (Səudiyyə Ərəbistanı), "Masdar" (BƏƏ), "Fortescue Future Industries" (Avstraliya) və Avropa İttifaqı bu əməkdaşlıqda xüsusi yer tutur. Həmçinin COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş imzalanıb. Üç qardaş ölkənin "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş imzalayaraq bərpaolunan enerji mənbələrinə əsaslanan dayanıqlı gələcəyin bünövrəsini qoydular. Layihə, həmçinin Qara dənizin dibi ilə keçən enerji kabeli ilə əlaqələndiriləcək.

Azərbaycanın "yaşıl enerji" sahəsində atdığı qətiyyətli addımlar, Qaradağ Günəş Elektrik Stansiyasının timsalında daha bir zirvəyə çatıb. 2022-ci ilin 15 mart tarixində "Gülüstan" sarayında Prezident İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazroueinin iştirakı ilə təməli qoyulan bu möhtəşəm layihə 2023-cü ilin 26 oktyabrında rəsmi olaraq icra edildi. Açılış mərasimində Prezident İlham Əliyev və BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir iştirak edərək bu tarixi hadisəni qeyd etdilər. Qaradağ Günəş Elektrik Stansiyası yalnız Azərbaycanda deyil, bütün Xəzər regionu və MDB məkanında bənzəri olmayan bir layihədir. 230 MVt gücündə olan bu stansiya 262 milyon ABŞ dolları həcmində xarici sərmayə hesabına tikilib və ölkəmizdə xarici investisiya ilə həyata keçirilən ilk sənaye miqyaslı günəş elektrik stansiyasıdır. Bu layihə Azərbaycanın enerji sahəsində yeni bir dövrün başlandığını nümayiş etdirir. Stansiya hər il 500 milyon kVt/saat elektrik enerjisi istehsal edəcək ki, bu da 110 milyon kubmetr təbii qaza qənaət deməkdir. Bununla yanaşı, atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən stansiyada 570 min günəş paneli quraşdırılıb. Layihə çərçivəsində 330 kilovoltluq yarımstansiya tikilərək şəbəkəyə qoşulmuşdur.

Bərpaolunan enerji üzrə daha böyük bir layihə olan 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının tikintisi davam edir. 2020-ci ilin 30 dekabrında Azərbaycan Respublikası Energetika Nazirliyi və "Azərenerji" ASC ilə Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti arasında tarixi müqavilələr imzalandı. "İnvestisiya müqaviləsi", "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" bu layihənin həyata keçirilməsi üçün hüquqi zəmin yaratdı. 2022-ci ilin 13 yanvarında isə Prezident İlham Əliyev və Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudin iştirakı ilə külək stansiyasının təməlqoyma mərasimi keçirildi. Bu nəhəng layihə Xızı rayonunun Sitalçay və Abşeron rayonunun Pirəkəşkül kəndini əhatə edərək Azərbaycanın enerji xəritəsinə yeni bir güc mərkəzi əlavə edəcək. İlkin hesablamalara görə, stansiya ildə 1 milyard kVt/saat elektrik enerjisi istehsal edəcək. Bu da ildə 220 milyon kubmetr təbii qaza qənaət etməyə, 400 min tondan artıq karbon emissiyasının atmosferə atılmasının qarşısını almağa və 300 min evi elektrik enerjisi ilə təmin etməyə imkan yaradacaq. Ümumi dəyəri 300 milyon ABŞ dolları təşkil edən bu layihə tamamilə xarici investisiya hesabına həyata keçirilir. Bu Azərbaycanın beynəlxalq investorlar üçün cəlbedici və etibarlı tərəfdaş olduğunu bir daha sübut edir. Layihə Azərbaycanın həm iqtisadi, həm də ekoloji baxımdan dayanıqlı inkişaf strategiyasının bir parçasıdır.

Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi barədə qəti mövqeyinin nəticəsi olaraq işğaldan azad edilmiş ərazilərdə ilk sənaye miqyaslı günəş elektrik stansiyası fəaliyyət göstərəcək. Bu il COP29 çərçivəsində Cəbrayıl rayonunda 240 MVt gücündə Şəfəq Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib. Sözügedən GES ən böyük birbaşa xarici investisiya layihəsidir. Layihə 3 iyun 2021-ci il tarixində Energetika Nazirliyi ilə bp arasında imzalanmış İcra Müqaviləsi əsasında həyata keçirilir. Təməlqoyma mərasimində layihə üzrə "Azərbaycan Respublikası Hökuməti ilə "Şəfəq (Cəbrayıl) Solar Limited" şirkəti arasında İnvestisiya Müqaviləsi və "Azərbaycan Respublikası Energetika Nazirliyi ilə "Şəfəq (Cəbrayıl) Solar Limited" şirkəti arasında Torpaq İcarəsi Müqaviləsi", sonra isə simvolik olaraq stansiyanın ilk günəş paneli imzalanıb. İmzalama prosesinə SOCAR və Azərbaycan İnvestisiya Şirkəti də qoşulub. "Şəfəq" GES-də illik təxminən 500 milyon kVt/saat elektrik enerjisi istehsalı gözlənilir ki, bu da ildə 120-150 milyon kubmetr təbii qaza qənaət, 260-330 min ton karbon emissiyasının azaldılması deməkdir. Virtual Enerji Ötürülməsi Mexanizmi (VPTA) çərçivəsində stansiyada istehsal olunan enerji Cəbrayılda mövcud elektrik şəbəkəsinə ötürüləcək və eyni miqdarda enerji Səngəçal terminalına veriləcək. Nəticədə terminalın enerji ehtiyaclarını qarşılamaq üçün bərpaolunan enerjidən istifadə ediləcək və bp-nin Xəzər regionunda əməliyyat tullantılarının azaldılmasına dəstək verəcək. Beləliklə, layihənin icrası həm milli iqtisadiyyata, həm də konsorsium üzvlərinin, o cümlədən SOCAR-ın dekarbonizasiya səylərinə mühüm töhfə olacaq. "Şəfəq" Günəş Elektrik Stansiyasının səhmdarları bp, SOCAR və Azərbaycan İnvestisiya Şirkəti olmaqla, layihəyə təxminən 200 milyon ABŞ dolları məbləğində investisiya yatırılması nəzərdə tutulur. Qeyd edək ki, ölkəmizdə 2030-cu ilə qədər təxminən altı giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi planlaşdırılıb. Lakin görülən işlər bununla kifayətlənməyəcək. Belə ki, əlavə olaraq 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

2021-ci il mayın 18-də Ağdam şəhərində ictimaiyyət nümayəndələri ilə görüş zamanı İlham Əliyev Azərbaycanın enerji strategiyasına yeni istiqamət verəcək tarixi bir bəyanatla çıxış etdi. Dövlət başçısı bildirdi ki, bütün Qarabağ "yaşıl enerji" zonası elan ediləcək. Bu bəyanat yalnız Qarabağın bərpası deyil, həm də onun gələcəyinin daha ekoloji və texnoloji əsaslarla qurulması üçün bir yol xəritəsidir. Prezident İlham Əliyev qeyd edib ki, azad edilmiş ərazilərdə bütün infrastruktur layihələri müasir standartlara uyğun həyata keçiriləcək, bu bölgələr enerji baxımından öz-özünə yetərli və tamamilə bərpaolunan mənbələrdən istifadə edən bir modelə çevriləcəkdir. "Yaşıl enerji" zonası konsepsiyası yalnız Qarabağın təmiz enerjidən istifadə etməsi ilə məhdudlaşmır. Bu, həm də karbon emissiyalarının azaldılması, ətraf mühitin qorunması və bölgədə dayanıqlı iqtisadi inkişafın təmin olunması deməkdir. Qarabağın təbiəti və coğrafi potensialı burada günəş, külək və su enerjisindən maksimum səmərəli istifadəyə imkan verir. Bu günə qədər Qarabağ və Şərqi Zəngəzurda dövlət başçısının iştirakı ilə onlarla Su Elektrik stansiyaları istismara verilib. Həmin ərazilərdə istismarda olan su elektrik stansiyaları hesabına ilin bütün fəsillərində xalis sıfır karbon emissiyalı bölgəyə çevrilib və elektrik enerjisi tələbatı tam həcmdə "yaşıl enerji" hesabına təmin edilir.

Dövlət başçısı bu il sentyabrın 2-də Kəlbəcər rayonunda səfərdə olarkən birinci xanım Mehriban Əliyeva ilə birgə Tərtər çayı üzərində yerləşən "AzərEnerji" ASC-nin 22,5 MVt gücündə "Yuxarı Vəng" Su Elektrik Stansiyasının açılışında iştirak ediblər. Kəlbəcərdə yeni tikilən "Yuxarı Vəng" Su Elektrik Stansiyası Vətən müharibəsində qələbəmizdən sonra regionda yaradılan ən böyük "yaşıl enerji" mənbəyidir. Belə ki, təkcə bu SES-də istehsal edilən "yaşıl enerji" növbəti 5 il ərzində Kəlbəcər rayonunun elektrik enerjisi tələbatını tam ödəyə bilər. Ümumi gücü 40 meqavat olan "Kəlbəcər" SES silsiləsi azad edilən ərazilərdə 42 meqavatlıq "Zəngilan" SES silsiləsindən sonra tikilən ikinci böyük silsilədir. "Yuxarı Vəng" SES-ə su iki mənbədən - "Nadirxanlı" SES-in çıxışı və Tutqu çayı üzərində inşa edilən baş suqəbuledici qurğudan daxil olur. Müasir avadanlıqla təchiz edilən stansiyada 110 kilovoltluq Açıq Paylayıcı Qurğu tikilib və 24 damarlı optik kabel xətti çəkilib. Bununla da stansiya mərkəzləşmiş SCADA sisteminə inteqrasiya olunmaqla yanaşı, ən müasir rəqəmsal idarəetmə sistemləri ilə təchiz olunub və burada lazımi kibertəhlükəsizlik tədbirləri görülüb. Layihə çərçivəsində həyata keçirilən tikinti-quraşdırmada ətraf mühit amilləri nəzərə alınıb. Belə ki, çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması üçün xüsusi hidrotexniki qurğular layihələndirilərək tikilib. Yuxarı Vəng SES-də il ərzində 66 milyon kVt/saatadək "yaşıl enerji"nin istehsal olunması nəzərdə tutulur. Bu da 15 milyon kubmetr təbii qaza qənaət edilməsi, 27 min tondan çox karbon emissiyasının qarşısının alınması deməkdir.

Bu il oktyabrın 3-də dövlət başçısının açılışında iştirak etdiyi digər bir layihə Zəngilan rayonunda yerləşən "AzərEnerji" ASC-nin "Sarıqışlaq" Su Elektrik Stansiyası olub. "Sarıqışlaq" SES Oxçuçayın üzərində kaskad üsulla tikilən Zəngilan silsiləsindəki 4 SES-dən biridir və buna qədər digər 3 SES - "Cahangirbəyli", "Şayıflı" və "Zəngilan" Su Elektrik stansiyaları dövlətimizin başçısının iştirakı ilə istismara verilib. "Yaşıl enerji" zonası konsepsiyasına uyğun olaraq tikilən "Sarıqışlaq" SES-də eyni vaxtda derivasiya borularının montajından, bünövrə işlərindən tutmuş maşın zalının tikilməsinə, açıq paylayıcının qurulmasına qədər bütün işlər tam normativ qaydalara uyğun həyata keçirilib. Flora və faunanın qorunması üçün xüsusi qurğular quraşdırılmaqla yaradılan baş suqəbuledicidən çıxan suyun 35 faizi çay məcrasında saxlanılmaqla derivasiya boruları çəkilib və borudan çıxan suyun itkisiz şəkildə çaya təkrar buraxılması təmin olunub. Su elektrik stansiyasında 110 kV-luq açıq paylayıcı qurğu tikilib. Bu qurğu nəinki "Sarıqışlaq" SES-də, eyni zamanda "Şayıflı" SES-də istehsal olunan "yaşıl enerji"nin sistemə ötürülməsi funksiyasını icra edir. Burada həm yarımstansiya, həm də bütövlükdə su elektrik stansiyası rəqəmsal avadanlıqlarla təchiz edilərək avtomatik idarəetmə sistemi ilə təmin olunub. "Sarıqışlaq"da il ərzində 33 milyon kVt/saatadək elektrik enerjisinin istehsal olunması, bununla da 7,4 milyon kubmetr qaza qənaət edilməsi və atmosferə atılan 13 min ton karbon qazının qarşısının alınması nəzərdə tutulur.

**Musa BAĞIRLI,**
**"Respublika".**